1_Layout 1 26.05.2014 8:54 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 10 (428)
28 may 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# "AZƏRBAYCAN HEÇ VAXT ÖZ TARİXİ TORPAĞINDA İKİNCİ ERMƏNİ DÖVLƏTİNİN YARADILMASINA İMKAN VERMƏYƏCƏKDİR"

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "The Business Year" nəşrinə müsahibə vermişdir. Həmin müsahibəni təqdim edirik.*

**- Zati-aliləri, Siz ötən ilin oktyabr ayında keçirilmiş prezident seçkilərində inamlı qələbə qazandınız. Qələbənizi şərtləndirən başlıca amillər barədə nə deyə bilərsiniz və növbəti prezidentlik dövrünün prioritetləri nədən ibarət olacaq?**

- 2013-cü il prezident seçkiləri Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olmuş və son 10 ildə həyata keçirilən siyasi kursa cəmiyyətimizin münasibətini nümayiş etdirmişdir. Keçən illər ərzində biz Ümummilli Lider Heydər Əliyevin siyasətini davam etdirməklə dövlətimizin və cəmiyyətimizin qarşısında duran mühüm məsələlərin həllinə nail olduq. Azərbaycan iqtisadi inkişaf göstəricilərinə görə dünyanın lider ölkələrindən birinə çevrildi və daha da gücləndi. Düşünülmüş proqramlar əsasında həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ümumi daxili məhsul 3,4 dəfə, iqtisadiyyatın qeyri-neft sektoru 2,6 dəfə, büdcə gəlirləri 16 dəfə artdı, strateji valyuta ehtiyatlarının həcmi isə 50 milyard dolları keçdi. Ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi isə 170 milyard dolları ötmüşdür.

Sürətli inkişaf həm də vətəndaşların sosial rifahının yüksəlməsinə səbəb olmuşdur. Son 10 ildə əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artmışdır. Hesab edirəm ki, yoxsulluğun səviyyəsinin 49 faizdən 5,3 faizə düşməsi, habelə işsizliyin iki dəfə azalaraq cəmi 5 faiz təşkil etməsi bizim ölkənin mühüm uğuru hesab oluna bilər. 10 ildə respublikada genişmiqyaslı quruculuq işləri həyata keçirilmiş, şəhər, qəsəbə və kəndlərimiz müasirləşmiş, bütün sahələrdə ən müasir standartlar və qabaqcıl texnologiyalar tətbiq olunmuşdur.

Azərbaycanın uğurları aparıcı beynəlxalq təşkilatlar, nüfuzlu reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013-2014" hesabatına əsasən, dünya ölkələrinin rəqabət qabiliyyətliliyi reytinqində Azərbaycan 39-cu yeri tutmuşdur.

Hazırda dünyada sosial gərginliyin, işsizliyin və yoxsulluğun artması fonunda Azərbaycanda tam əks proseslərin müşahidə olunması - sürətli inkişaf, tərəqqi, əhalinin rifahının yüksəlməsi, ictimai-siyasi sabitlik, milli həmrəyliyin möhkəmlənməsi və s. düşünürəm ki, 2013-cü il prezident seçkilərinin taleyini həll edən başlıca amillər olmuşdur. Seçkiləri müşahidə edən AŞPA, Avropa Parlamenti, ATƏT PA, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər mötəbər təşkilatlar seçki prosesini birmənalı olaraq yüksək qiymətləndirmiş, onun azad, ədalətli və şəffaf keçdiyini bəyan etmişlər. Bu da onu göstərir ki, seçki və onun nəticəsi ilə bağlı Azərbaycan xalqının və beynəlxalq birliyin rəyləri üst-üstə düşmüşdür. Azərbaycan xalqı öz seçimi ilə həm bu günədək həyata keçirilən siyasətə, həm də gələcək fəaliyyətimizə öz dəstəyini ifadə etmişdir.



**- 2013-cü il Azərbaycanda "informasiya-kommunikasiya texnologiyaları ili" elan edilmiş və ölkəniz İKT sektorunun inkişafında böyük nailiyyətlərə imza atmışdır. İrəliyə baxarkən, Azərbaycanın inkişafında müasir texnologiyalar hansı rol oynayacaq?**

- Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin üstün cəhəti ondan ibarətdir ki, bütün tədbirlər ölkənin real potensialı, dünya iqtisadiyyatının inkişaf meylləri nəzərə alınmaqla və konkret proqramlar əsasında reallaşdırılır. Son 10 ildə informasiya və rabitə sahəsinin inkişafı 8,2 dəfə artmışdır. 2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peykinin orbitə çıxarılması, kosmik sənayenin əsasının qoyulması ölkəmiz üçün tarixi əhəmiyyət kəsb edən hadisə olmuşdur. Növbəti illərdə daha iki peykin orbitə çıxarılması üçün müvafiq tədbirlər görülür.

Bununla yanaşı, Azərbaycanda son illərdə internet sürətlə inkişaf edir. Ümumdünya Telekommunikasiya Təşkilatının hesabatına əsasən, bu gün ölkə əhalisinin 70 faizi internet istifadəçisidir. Artıq respublikanın hər bir şəhərinə genişzolaqlı internetin çəkilişi başlanmışdır.

Bir faktı da qeyd etməliyəm ki, biz təkcə dünyadakı mövcud innovasiyaları tətbiq etməklə kifayətlənmirik, həm də bir sıra yeniliklərin təşəbbüskarı kimi çıxış edirik. Bu mənada Azərbaycanın "brendi" hesab oluna biləcək Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini və onun tabeliyində yaradılan "ASAN xidmət" mərkəzlərini xüsusi qeyd etmək istəyirəm. Bu xidmət dövlət-vətəndaş münasibətlərinə yeni yanaşmanın mütərəqqi modelidir və hazırda 25 növ hüquqi xidmət həyata keçirir. Təsadüfi deyil ki, cəmi bir il ərzində xidmətə bir milyondan çox müraciət olmuşdur. Ona görə də biz qarşıdakı dövrdə "ASAN xidmət"in funksiyalarını daha da genişləndirməyi nəzərdə tuturuq.

Qarşıda duran vəzifələri səmərəli şəkildə həll etmək məqsədi ilə Yüksək Texnologiyalar Parkı və İnformasiya Texnologiyalarının İnkişafı Fondu təsis edilmişdir. İnnovasiyalara, yüksək texnologiyalara əsaslanan güclü iqtisadiyyatın formalaşdırılması bizim əsas hədəflərimizdən biridir və bu məqsədə doğru ardıcıl şəkildə irəliləyirik.

**- 2014-cü il Azərbaycanda "Sənaye ili" elan edilmişdir. Qarşıdan gələn dövrdə bu istiqamətdə hansı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur?**

- Əvvəllər əsasən aqrar respublika hesab olunan Azərbaycanda ötən əsrin 70-80-ci illərində sənayenin inkişaf etdirilməsi məqsədi ilə mühüm addımlar atılmış, ümumittifaq səviyyəli yüzlərlə yeni sənaye müəssisəsi işə salınmış və müttəfiq respublikalar üçün müxtəlif çeşidli məhsullar istehsal edilmişdir. Lakin SSRİ-nin süqutu ilə keçmiş respublikalar arasındakı iqtisadi əlaqələr pozulmuş və ümumilikdə planlı iqtisadiyyat tənəzzülə uğramışdır. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzü, ölkədə hökm sürən hərc-mərclik şəraiti, mövcud müəssisələrin fiziki və mənəvi cəhətdən köhnəlməsi və s. nəticəsində iqtisadiyyat getdikcə aşağı düşmüş, istehsal prosesi pozulmuşdur. Odur ki, yalnız Ümummilli Lider Heydər Əliyevin səyləri nəticəsində 2000-ci ilin əvvəllərində istehsalın həcmini 1990-cı ilin səviyyəsinə çatdırmaq mümkün olmuşdur.

Hazırda qarşımızda duran əsas vəzifələrdən biri mövcud potensiala əsaslanaraq Azərbaycanı güclü sənaye dövlətinə çevirməkdir. Artıq sənayenin şaxələndirilməsi və modernləşdirilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Biz mövcud təbii və iqtisadi resursları istehsalat dövriyyəsinə cəlb edirik, yeni istehsal sahələri və sənaye parkları yaradırıq, innovasiyaların tətbiqini sürətləndiririk. Buna görə də 2014-cü il "Sənaye ili" elan olunmuş, cari ildə həyata keçiriləcək tədbirlərin ümumi planı hazırlanmış və təsdiq edilmişdir. Eyni zamanda, "Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın hazırlanması və təsdiq olunması nəzərdə tutulur.

Hesab edirik ki, toplanmış təcrübə və ölkəmizin ümumi iqtisadi potensialı qarşıda duran vəzifələrin uğurla həll edilməsinə imkan verəcəkdir.

**- Keçən ay regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramı təsdiq olundu. Əvvəlki iki proqramın icrası nəticəsində nəyə nail olunmuşdur və üçüncü proqramın icrasından nə gözlənilir?**

- 2004-cü ildə birinci Dövlət Proqramını qəbul edərkən əsas məqsədimiz regionların hərtərəfli inkişafını təmin etmək, bölgələrlə paytaxtın inkişaf səviyyəsi arasındakı kəskin fərqi aradan qaldırmaq olmuşdur. Mən hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər etimad göstərilərsə, ilk növbədə Azərbaycanın regionlarının inkişafı ilə məşğul olacağam, bu məqsədlə xüsusi proqram qəbul ediləcəkdir. Belə də oldu.

2004-2008 və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramının qəbul edilməsi, həmin proqramlara əlavə olaraq 250-yə yaxın sərəncamın imzalanması və icrası bölgələrdə böyük dönüş yaratmış, regionların sosial-iqtisadi mənzərəsini tamamilə dəyişmişdir. Nəticədə bölgələrdə kommunal xidmətlərin və sosial infrastrukturların keyfiyyəti yüksəlmiş, sahibkarlıq mühiti yaxşılaşmış, investisiya qoyuluşu artmış, minlərlə yeni müəssisə fəaliyyətə başlamış, 900 mini daimi olmaqla 1,2 milyondan çox iş yeri yaradılmışdır.

Bizim qarşımızda duran strateji vəzifə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək və bütün sahələr üzrə onu dünyanın inkişaf etmiş, rəqabətədavamlı ölkələri sırasına çıxarmaqdır. Buna görə, müasir dövrün çağırışları da nəzərə alınmaqla, regionlarımızın dinamik inkişafı istiqamətində həyata keçirilən tədbirlər davam etdiriləcəkdir. Hesab edirəm ki, yeni təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası qeyri-neft sektorunun davamlı inkişafını, infrastrukturların və sosial xidmətlərin daha da yaxşılaşmasını, dünyada mövcud olan ən yüksək standartlar səviyyəsinə çatdırılmasını təmin edəcəkdir.

**- Son illər Azərbaycan xarici siyasət sahəsində də mühüm uğurlar əldə etmişdir. Ölkənizin BMT Təhlükəsizlik Şurasında fəaliyyəti, xarici siyasətin yeni prioritetlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi və s. məsələləri bu sıraya daxil etmək olar. Qarşıdan gələn dövrdə Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri hansılar olacaq?**

- Azərbaycanın hərtərəfli inkişafı, iqtisadi potensialının güclənməsi, həyata keçirilən fəal xarici siyasət ölkəmizin nüfuzunun yüksəlməsini, beynəlxalq aləmə daha sıx inteqrasiyasını, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsini təmin etmişdir. Bu gün Azərbaycan müstəqil siyasət yürüdən, qlobal siyasi proseslərə və beynəlxalq münasibətlər sisteminə öz baxışı olan, mövqeyi nəzərə alınan bir dövlət hesab olunur. 2011-ci ildə sərt rəqabət şəraitində BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməyimiz xalqımızın tarixi nailiyyəti, xarici siyasətimizin böyük uğuru olmaqla yanaşı, həm də ölkəmizin beynəlxalq aləmdə yüksək nüfuz qazandığını göstərmişdir. Göründüyü kimi, beynəlxalq aləm dövlətimizin mövqeyini dəstəkləyir, addımlarımızı təqdir edir.

Azərbaycan həm də qlobal transmilli və çoxsaylı regional layihələrin əsas təşəbbüskarı kimi çıxış etmişdir. Ölkəmizin həyata keçirdiyi enerji siyasəti təkcə bizim üçün deyil, həm də regionumuz və dünya üçün mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, 2013-cü il dekabrın 17-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin qaz ehtiyatlarının hasilatı və dünya bazarlarına çıxarılması üzrə "Şahdəniz-2" beynəlxalq yekun investisiya layihəsi imzalanmışdır.

Hazırda Azərbaycan Cənubi Qafqaz regionunun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilmişdir. Bakı şəhərinin mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halını almışdır. 2013-cü ildə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Fələstinə yardım məqsədilə beynəlxalq konfransın, III Beynəlxalq Humanitar Forumun, İkinci Mədəniyyətlərarası Dialoq Forumunun, Davos Dünya İqtisadi Forumunun və digər yüksək səviyyəli qlobal tədbirlərin keçirilməsi buna sübut ola bilər.

Qarşıdan gələn illərdə ölkəmizin siyasi və iqtisadi potensialının daha da gücləndirilməsi, beynəlxalq nüfuzunun artırılması, beynəlxalq təşkilatlarla, ayrı-ayrı ölkələrlə tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində səylər davam etdiriləcəkdir. Xarici siyasətimizin təməlində Azərbaycanın milli maraqlarının qorunması dayanır ki, bu istiqamətdə bütün lazımi addımlar atılacaqdır.

Təəssüflə qeyd etməliyəm ki, xarici siyasətimizin əsas məsələsi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində bu günə kimi ciddi bir irəliləyiş olmamışdır. Ermənistan tərəfi danışıqlar prosesini müxtəlif bəhanələrlə uzatmaqda davam edir və mövcud status-kvonun saxlanmasına çalışır. Düzdür, ötən ilin sonunda danışıqlar prosesində nisbi canlanma müşahidə edilmişdir. Buna görə də, güman etmək olar ki, 2014-cü ildə bu proses davam etdiriləcəkdir. Ermənistan rəhbərliyi anlamalıdır ki, Azərbaycan heç vaxt öz tarixi torpağında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və ediləcəkdir. Münaqişə davam etdikcə Ermənistan dövləti bölgənin bütün transmilli və regional inkişaf layihələrindən kənarda qalacaq, erməni xalqının vəziyyəti pisləşməkdə davam edəcək və ölkənin olub-qalan sosial-iqtisadi potensialı tükənəcəkdir.

**- Səbirsizliklə gözlənilən I Avropa Oyunlarına hazırlıq işləri necə gedir?**

- Bu il I Avropa Oyunlarına hazırlığın həlledici mərhələsinə qədəm qoyduq. Məlumdur ki, bu səviyyəli tədbirlərə hazırlıq adətən 7-8 il davam edir. Biz isə cəmi iki il yarım ərzində Avropa Yay Oyunları kimi möhtəşəm tədbir keçirmək niyyətindəyik. Əminəm ki, qarşıda duran bütün məsələlərin həllinə vaxtında nail olunacaq. Artıq Təşkilat Komitəsi formalaşmış və olduqca məhsuldar fəaliyyət göstərir. Tədbirin keçirilməsi nəzərdə tutulan idman obyektlərinin böyük əksəriyyətinin tikintisi bu il başa çatmalıdır. Olimpiya stadionunun, su idman sarayının, stend atıcılığı mərkəzinin tikintisi davam etdirilir. Artıq gimnastika mərkəzi fəaliyyət göstərir. Heydər Əliyev İdman-Konsert Kompleksi, Bakı İdman Sarayı əsaslı təmir olunur, digər idman obyektləri yaradılır. Ancaq bu Oyunlara hazırlıq təkcə müvafiq idman obyektlərinin tikintisi ilə məhdudlaşmır. Eyni zamanda, təhlükəsizlik, nəqliyyat, Olimpiya şəhərciyinin yaranması, qonaqların, idmançıların qarşılanması, yerləşməsi, məşqlərin keçirilməsi və digər məsələlər çox ciddi diqqət tələb edir. Nəzərə alsaq ki, Azərbaycanın artıq güclü potensialı, oturuşmuş idman infrastrukturu mövcuddur və bizim böyük beynəlxalq tədbirləri təşkil etməkdə yaxşı təcrübəmiz vardır, əminəm ki, bu Oyunları ən yüksək səviyyədə keçirə biləcəyik. Hesab edirəm ki, Azərbaycanda tətbiq olunan standartlar bundan sonrakı Avropa Oyunlarının təməl prinsiplərinə çevriləcəkdir.



# DAXİLİ QOŞUNLAR: atəşkəsdən sonrakı 20 ildə keçilən yola baxış

Bu il mayın 12-də Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs elan olunmasından 20 il ötdü. 1994-cü ilin may ayının 12-də imzalanan atəşkəs razılaşması Ermənistan-Azərbaycan sərhədində, habelə Ermənistan hərbi qüvvələrinin işğal etdiyi ərazilərimizdən keçən təmas xəttində döyüşlərin başa çatması ilə nəticələndi. O vaxt Azərbaycanın Daxili Qoşunlarının böyük sayda kontingenti Füzuli rayonunun ərazisində cəmləşmişdi. Atəşkəs elan olunanadək həmin istiqamətdə uğurlu Horadiz əməliyyatından sonra heç bir ciddi irəliləyiş əldə olunmamışdı. Buna baxmayaraq, cəbhə xəttinin o sahəsində düşmənin əks hücumlarının qarşısı alınmış, mövqeləri əldə saxlamağa nail olunmuşdu. O günlərdə Daxili Qoşunların döyüşlərdə iştirak edən şəxsi heyətinin mənəvi-psixoloji durumunda müsbət dönüş yaranmışdı. Hərbi qulluqçularımızın Cəbrayılın Cocuq Mərcanlı kəndini də düşməndən təmizləyərək döyüş üstünlüyünü ələ alması, 1993-cü ilin ağır döyüşlərindən sonra özünə inamın bərpa olunması Daxili Qoşunların Qarabağ müharibəsi salnaməsində rəğbət doğuran, xatırlanmağa layiq faktlardan biridir.

1994-cü ilin may günündə atəşkəsin uzunmüddətli olacağını, torpaqlarımızın bu qədər vaxt işğal altında qalacağını heç kəs düşünə bilməzdi. Aydındır ki, bu gerçəklik ölkəmizin iradəsinə bağlı məsələ deyil. Ötən 20 ildə biz sülhün çətin yolunu keçmişik. Azərbaycan çox gərgin diplomatik mübarizədə, siyasi-ideoloji qarşıdurmada öz sözünü deyə bilib. Ərazisinin bir hissəsi işğal olunmuş dövlət kimi heç bir təzyiqə boyun əyməyib, saysız-hesabsız çətinliklərə baxmayaraq, güclü iqtisadiyyat qurub, demoqrafik üstünlüyünü daha da artırıb. Ən əsası isə ordu quruculuğu baxımından atəşkəs dövründən məqsədyönlü və səmərəli şəkildə istifadə olunub.

Atəşkəs dövründə ölkəmizin ordu quruculuğundakı prosesləri geniş təhlil etmək fikrim yoxdur. Mən bu proses çərçivəsində Daxili Qoşunların nailiyyətlərini, mühüm inkişaf göstəricilərini nəzərdən keçirmək istəyirəm.

Ötən zaman kəsiyində, demək olar ki, Daxili Qoşunlar yenidən formalaşmağa başlayıb. Daxili Qoşunların fəaliyyətinin hüquqi-normativ bazası yaradılıb. Sovet dövründən qalma direktiv, əmr və təlimatlar, nizamnamə və əsasnamələr öz qüvvəsini itirib.

Daxili Qoşunların hərbi hissələrinin maddi-texniki bazası möhkəmləndirilib, bir sıra regionlarda yeni hərbi hissələr yaradılaraq ictimai təhlükəsizlik sistemində öz yerini tutub. Bundan əlavə, Daxili Qoşunların çevik eskadrilya bölmələri formalaşdırılıb. Bu da onun döyüş potensialını kifayət qədər artırıb. Hərbi qulluqçularımız paraşütdən tullanmada da öz məharətini göstərib və bu sınaqdan alnıaçıq çıxıblar.

Ötən illərdə beynəlxalq əməkdaşlıq əlaqələri genişlənib, Daxili Qoşunların hərbi qulluqçularının ayrı-ayrı ölkələrdə hərbi təhsil alması, təkmilləşmə kursu keçməsi yönündə addımlar atılıb. Bəzi hərbi qulluqçularımız xaricdəki hərbi təhsil müəssisələrində yüksək təlim nəticələri nümayiş etdiriblər. Beynəlxalq əlaqələr çərçivəsində xidmətin müxtəlif istiqamətləri üzrə xarici həmkarlarla faydalı təcrübə mübadiləsi aparılıb.

Şəxsi heyətin qidalanması, geyim təchizatı, tibbi təminatı müasir tələblər səviyyəsinə çatdırılıb. Əsgərlər üçün yeni kazarmalar inşa olunub, zabit və gizirlərin, onların ailə üzvlərinin istifadəsinə yeni yaşayış binaları verilib, eyni zamanda onların istirahərini yüksək səviyyədə təmin etmək üçün mərkəz yaradılıb.

Daxili Qoşunların vəzifələrinin uğurla icra olunması üçün müvafiq təlim-tədris proqramları işlənib, təlim vəsaitləri yenilənib, müasir texnologiyalardan istifadə olunmasına başlanıb.

Mərhələ-mərhələ, öncə zabit və gizirlər üçün tədris mərkəzinin, sonra kiçik zabitlər hazırlayan orta ixtisas hərbi məktəbinin və nəhayət, Ali Hərbi Məktəbin yaradılması ötən dövr üçün Daxili Qoşunların mühüm inkişaf göstəricilərindən sayıla bilər.

Ötən müddətdə Daxili Qoşunların şəxsi heyətinin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun qorunub saxlanmasına xüsusi diqqət yetirilib. Elə bu məqsədlə, habelə Daxili Qoşunların tarixini əks etdirmək üçün müvafiq muzeyin yaradılması təqdirəlayiq nailiyyətdir. Həmçinin bu illərdə Daxili Qoşunların Qarabağ müharibəsində insani və maddi itkilərinin, habelə döyüşlərdə iştirak etmiş hərbi hissələrin qiymətli təcrübəsinin müəyyən tədqiqatları da aparılıb. Ancaq bu proses yekunlaşmayıb.

Qeyd olunan dövrdə Daxili Qoşunların emblemi, döyüş bayrağı və döş nişanı təsdiq edilib. Bütün hərbi hissələrə döyüş bayrağı təqdim olunub və şəxsi heyətə döyüş bayrağının müqəddəsliyi aşılanıb.

Təhlil etdiyim o illərdə idman uğurlarına da imza atmışıq. Peşəkar idmançı hərbi qulluqçularımız arasında Olimpiya oyunlarında, Dünya və Avropa çempionatlarında qalib olaraq ölkəmizin bayrağını qaldıranlar xalqımızın fəxridir.

Göstərilən nailiyyətlərə rəğmən, Daxili Qoşunların nüfuzunu formalaşdıran, peşəkar imicini yaradan əsas faktor xidməti-döyüş fəaliyyətində qarşıya qoyulan tapşırıqların layiqincə yerinə yetirilməsi olub. Bu gün də belədir.

Vətəndaşlarımızın əmin-amanlığını təhdid edən, ictimai asayişə təhlükə yaradan silahlı cinayətkarların, terrorçu qrupların zərərsizləşdirilməsi, ayrı-ayrı vaxtlarda paytaxt və bəzi bölgələrdə kütləvi iğtişaşların qarşısının alınması, dövlət əhəmiyyətli tədbirlərdə ictimai təhlükəsizliyin təmin olunması, təbii fəlakətlər zamanı xilasetmə işlərində fəal iştirak edilməsi, mühüm dövlət obyektlərinin etibarlı qorunması ictimai rəydə "onlara güvənmək olar" mövqeyinin səslənməsini reallığa çevirib.

Atəşkəs dövründə Daxili Qoşunlar əsasən asayiş qoşunu kimi funksiyalarını geniş tətbiq etsə də, döyüş gücü və əzmi geriləməyib. Şəxsi heyət bu gün də hər bir sınaqdan keçməyə qadirdir.

**Yalçın Abbasov,**
**Daxili Qoşunların**
**Veteranlar Şurasının katibi**

# MİNNƏTDARLIQ

Mən, 16076 saylı hərbi hissədə sıravi əsgər kimi xidmət edən Cəfərzadə Nicat Müşfiq oğlunun anasıyam. Hər dəfə övladımla görüşə gələrkən hərbi hissədə məni bir əsgər anası kimi çox yüksək səviyyədə qarşılayırlar. Hərbi hissədə övladlarımız üçün yaradılmış şərait ürəyimizcədir.

Əsgərlərin keyfiyyətli ərzaq və qidaları, səliqəli, təmiz geyimləri, o cümlədən hərbi hissədə olan səliqə-sahman buradakı nizam-intizamdan xəbər verir.

Mən bir valideyn kimi bunlara biganə qala bilməzdim. Ona görə də şəxsən hərbi hissə komandanlığına öz təşəkkürümü bildirirəm. Məhz övladlarımızın etibarlı əllərdə olduğu üçün bu təşəkkür məktubunda Daxili İşlər Nazirliyinin rəhbərliyinə, xüsusilə də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

*Hörmətlə,*
*əsgər anası Cəfərova Səbinə*
*Miralı qızı,*
*Lənkəran rayonu Ləj kənd sakini*

# ZABİTLƏRİMİZ NATO-nun TƏLİMİNDƏ İŞTİRAK ETMİŞLƏR

Mayın 5-dən 8-dək Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Proqramı çərçivəsində «Qaraheybət» Təlim-Tədris mərkəzində növbəti səhra təlimi keçirilmişdir.

Müdafiə Nazirliyinin qiymətləndiriciləri və NATO-nun ekspert qrupu ilə yanaşı, xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən səfirliklərindən, hərbi attaşeliklərindən nümayəndələrin iştirak etdiyi təlimdə DİN Daxili Qoşunların Döyüş hazırlığı şöbəsinin rəisi polkovnik Xaliq Eyvazov, Beynəlxalq hərbi əməkdaşlıq şöbəsinin NATO ilə əməkdaşlıq üzrə zabiti kapitan Tural Murtuzayev və Əməliyyat şöbəsinin zabiti kapitan Yavər Məmmədov təmsil edirdi.

Səhra təlimi hazırlanmış xüsusi ssenari əsasında təşkil olunmuşdur. Əvvəlcə təlimdə iştirak edəcək şəxsi heyətə sıra baxışı keçirilmiş və qərargahın hazırlığı yoxlanılmışdır. Sonra şəxsi heyətin xarici dil bilikləri, döyüş hazırlığı, silah-sursat, nəqliyyat, mühəndis-istehkam, rabitə və s. vasitələrin NATO standartlarına uyğunluğu, bu barədə edilən məruzə formaları, sənədləşmə qaydaları qiymətləndirilmişdir.

Təlimin sonuncu günü NATO ekspert qrupunun iştirakı ilə yekun iclas keçirilmiş, iştirakçılara sertifikatlar təqdim olunmuşdur.

**Əməliyyat və Döyüş**
**Hazırlığı İdarəsində**
**Döyüş hazırlığı şöbəsi**



**Bu gün Daxili Qoşunlarda güclü idman ənənələri formalaşmışdır. Daxili Qoşunların hərbi qulluqçularının iştirak etdiyi yerli, eləcə də beynəlxalq turnirlərdə əldə etdiyi nailiyyətlər bunu deməyə əsas verir.**

# BEYNƏLXALQ YARIŞIN MÜKAFATÇISI OLDU

Daha bir mötəbər yarışın mükafatçısı qoşunlarımızın zabiti oldu. Qazaxıstanın Astana şəhərində MDB dövlətlərinin güc nazirlikləri arasında idmanın əlbəyaxa döyüş növü üzrə beynəlxalq yarış keçirilmişdir. İyirmi dörd komanda olmaqla 200-dən çox idmançının iştirak etdiyi turnirdə Daxili Qoşunların 5 hərbi qulluqçusu öz qüvvəsini sınayıb. Qoşunları təmsil edən baş leytenant Qurban Qaflanov ən ağır çəkidə (95+) mübarizə aparmalı olduğu üçün onu qarşıda çətin sınaq gözləyirdi. Buna baxmayaraq, idmançımız əsl peşəkarlıq nümayiş etdirərək Vətənə zəfər sevinci ilə döndü.

İlk döyüşünü Qazaxıstanı təmsil edən idmançıyla keçirən Qurban rəqibini asanlıqla üstələdi. İkinci görüşdə pəhləvanımız Tacikistan nümayəndəsi ilə qarşılaşdı. Ona əsl peşəkar döyüşün necə olduğunu göstərən Q.Qaflanovu yarımfinalda yenidən qazaxıstanlı idmançı gözləyirdi. Qurbanın zərbələrinə tab gətirməyən rəqib finalı tatamidən kənarda izləməli oldu. Pəhləvanımız finalda yenidən yerli döyüşçü ilə üzbəüz gəlib. Qarşılıqlı mübarizə şəraitində gedən döyüşdə hakimlər sonuncu 1 xalı "ev sahibi"nə verərək onu qalib seçdilər. Cəngavərimiz II yerə layiq görülərək münsiflər tərəfindən medal, diplom və fəxri fərmanla mükafatlandırılıb.

Məlumat üçün bildirək ki, baş leytenant Q.Qaflanov ötən il də bu turnirin iştirakçısı olmuş və II yeri tutmuşdur.

İnanırıq ki, hərbi qulluqçumuz növbəti dəfə birinciliyi əldən verməyəcək.

Uğur olsun!

**baş leytenant T.Əlizadə**

# 28 MAY - RESPUBLİKA GÜNÜ




***Bu il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 96-cı ili tamam olur. Bu tarixi gün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olmuşdur. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir.***

1918–ci ilin may ayının 28–də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi ilə Azərbaycanın şimal torpaqlarında Azərbaycan Demokratik Xalq Cümhuriyyətinin yarandığını elan etdi. Bu tarixi sənədə görə, Azərbaycan qonşu xalqlar və dövlətlərlə dostluq münasibəti quracaqdır. Müstəqil Azərbaycan dövlətinin təşkil idarəsi xalq cümhuriyyətidir. Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsirlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafı, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Məmmədəmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinski və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti, millət, məzhəb, sinif və cins fərqi görmür və bütün vətəndaşların siyasi hüquqlarını təmin etməlidir. Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaranması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi.

Azərbaycan Xalq Cümhuriyyəti xüsusən təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı sahəsində fəaliyyəti ilə yadda qalmışdır. Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərdən biri təhsil müəssisələrinin milliləşdirilməsi oldu. 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti Dövlət Universitetinin təşkili haqqında qanun qəbul etdi və bununla milli təhsil ocağının əsası qoyuldu.

Demokratik Respublika dövründə kitabxana və muzey işinin quruluşunda böyük yeniliklər edildi. Azərbaycan hökuməti geniş oxucu kütləsinin ehtiyaclarını ödəmək üçün Bakıda ümumi kitabxana təşkil etmək məsələsini qaldırdı. 1920-ci ilin apreli üçün Azərbaycanda 95 min nüsxə kitab fondu olan 11 kitabxana var idi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanda ilk muzey- "İstiqlal" muzeyi təşkil olunmuşdur. Eyni zamanda Bakıda etnoqrafiya muzeyinin yaradılması haqqında Maarif Nazirliyi qarşısında məsələ qaldırılmışdır.

Xalq Cümhuriyyətinin zəngin və rəngarəng, orijinal mətbuatı olmuşdur. 1918-20-ci illərdə Bakıda, Gəncədə və respublikanın digər şəhərlərində onlarca qəzet və jurnal nəşr olunmuşdur.

İstiqlal dövrü milli teatr sənətinin, poeziyanın, dramaturgiyanın, ümumiyyətlə, incəsənətin inkişafında çox mühüm və maraqlı bir dövrdür. 1918-ci ilin oktyabrında Bakıda Hacıbəyli qardaşları tərəfindən teatr truppası yaradılmışdır. İstiqlal dövrü teatrın inkişafında əsaslı keyfiyyət dəyişiklikləri, dövlətin teatr sənətinə fəal yardımı, teatrın cəmiyyətin həyatında rolunun artması ilə əlamətdardır.

Azərbaycan Demokratik Respublikası Türk və İslam dünyasında ilk Parlamentli Respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. Müstəqil Azərbaycan Cümhuriyyəti qısa ömründə böyük nailiyyətlər və qalibiyyətlər əldə etmişdir.

İlk dəfə qadınlara seçim hüququnun verilməsini, qadın - kişi bərabərliyini, milli ordunu, milli pulu, azad seçkini, müstəqil beynəlxalq əlaqələri, ərazi bütövlüyünün bərpasını məhz Müstəqil Azərbaycan Cümhuriyyəti XX əsrin əvvəllərində təmin edə bilmişdir.

Demokratik Respublikanı tanıyan (1918-ci il 4 iyun) ilk dövlət Osmanlı dövləti olmuşdur.

Azərbaycan Demokratik Respublikası gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bildi. Təəssüflər olsun ki, müstəqil Azərbaycan Cümhuriyyəti iki yaşına çatmadan bolşeviklərin hücumuna məruz qalaraq devrildi.

***Nəhayət, 1991-ci ildə Sovet İmperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini elan etdi. "BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ BİR DAHA ENMƏZ" şüarı öz təsdiqini tapdı.***

*Xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Liderimiz Heydər Əliyev Xalq Cümhuriyyətinin ənənələrini əsas tutaraq, müstəqil Azərbaycan dövlətini yaratdı. Lakin Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacardı, dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərpa edildi.*

*Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı dönmədən inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür.*

**"Əsgər"**

3_Layout 1 26.05.2014 8:56 Page 1



*Şəhidlərimiz*

## AZƏRBAYCAN MƏNİM VƏTƏNİMDİR!!!



Makayev İqor Vladimiroviç

Vətənimiz qəhrəmanlar yurdu, igidlər məskənidir. Neçə-neçə ərənlər yetişdirən bu müqəddəs torpaq babəklərin, cavanşirlərin, koroğluların vətənidir. Tarixə nəzər salsaq, görərik ki, xalqımızın igid oğulları, mərd qızları heç vaxt Vətəni darda qoymamış, lazım gələndə doğma yurdumuz uğrunda hətta canlarından da keçmişlər. Xalqımız özünün tarixi ilə fəxr etdiyi kimi, tarixi yaradan şəxsiyyətləri, Vətənin azadlığı naminə canını fəda edən oğul və qızları ilə də haqlı olaraq hər zaman öyünür, onları şərəf və qeyrət simvolu kimi qəlbində yaşadır, gənc nəslə nümunə kimi təqdim edir.

Belə qəhrəman oğullarımızdan biri də Milli Qəhrəman Makayev İqor Vladimiroviçdir. O, 1971-ci il oktyabr ayında Gəncə şəhərində fəhlə ailəsində doğulub. 1987-ci ildə Mir Cəlal adına Kəpəz rayon 39 saylı məktəbi bitirib. 1987-1990-cı illərdə 8 saylı texniki-peşə məktəbində avtomobil çilingəri peşəsinə yiyələnib. 1990-cı ildə Kəpəz rayon Hərbi Komissarlığından hərbi xidmətə çağırılan İqor Daxili Qoşunların Bakıda yerləşən hərbi hissəsində xidmət keçdikdən sonra çavuş məktəbində təhsil almaq üçün Rusiyanın Rostov vilayətinə göndərilib.

Lakin XX əsrin sonlarında fəallaşan qaniçən erməni faşistlərinin torpaqlarımıza məlum təcavüzü, günahsız soydaşlarımızın vəhşicəsinə qətlə yetirilmələri və doğma el-obalarını tərk edərək qaçqın və məcburi köçkün vəziyyətinə düşmələri İqoru bərk narahat edirdi. Düşməni məhv etmək, müqəddəs torpaqlarımızı yağılardan təmizləmək igid döyüşçümüzün əsas qayəsi idi. Belə bir anda heç kim onun qarşısını ala bilməzdi.

"Mən Azərbaycanda dünyaya göz açmışam, ilk addımlarımı bu torpaqda atmışam. Bura mənim Vətənimdir. Özümü də bu torpağın övladı sayıram. Övlad Vətəni dar gündə qoyarmı? Mən Azərbaycanı qorumalıyam, yeri gəlsə, onun yolunda canımı da qurban verərəm". Bu sözlər onun Vətəninə nə dərəcədə bağlı olduğunu bir daha göstərirdi. Vətənin ağır günlərinə tab gətirə bilməyən İqor təhsilini yarımçıq qoyur, Bakıya gəlir və Daxili İşlər Nazirliyinin qoşun hissələrindən birinə yazılır. Elə həmin gündən də həyatını cəbhəyə bağlayır.

O, çox mərd, cəsur döyüşçü idi. Tez bir zamanda bütün silahlardan istifadə etməyi öyrənir. Və çox keçmir ki, onu taqım komandirinin müavini vəzifəsinə təyin edirlər.

1992-ci il iyunun 5-də səhər saat 6-da Erməni quldurları xeyli canlı qüvvə ilə Ağdamın Naxçıvanik kəndinə qəfildən hücuma keçirlər. İqorun qoruduğu post kənd qəbristanlığının yaxınlığında yerləşirdi. Bu zaman o, istirahətdə olan bütün əsgərləri ayağa qaldırıb postu möhkəmləndirir. Bir saata yaxın davam edən döyüşdə İqorun əsgərlərindən 7-8 nəfəri yaralanır. Qalanlar isə geriyə çəkilməyə məcbur olurlar. Həmin döyüşdə ermənilər kəndi alırlar. Lakin İqorun inadkarlığı, itki ilə barışmazlığı nəticəsində erməni qaniçənlərinin sevinci cəmi 3-4 saat çəkir. Döyüşçülərimiz yenidən hücuma keçərək kəndi geri qaytarırlar.

O, Ağdərə uğrunda gedən döyüşlərdə də düşmənin geri oturdulmasında qəhrəmanlığını əsirgəmir.

1992-ci il avqustun 2-də onun son döyüşü oldu. "Vışka" yüksəkliyi alınmalı idi. Düşmən çox güclü idi. İqor "Nikulin" ləqəbli bir azərbaycanlı ilə birlikdə mərdliklə düşmənə öz gücünü göstərirdi. Çox ağır keçən döyüşdə İqor əsl şücaət nümayiş etdirərək, 28 nəfərin mühasirədən çıxmasına kömək edir. Lakin özü xilas ola bilmir. Ömrünün 21-ci baharında əbədi olaraq həyata gözlərini yumur və şəhidlik zirvəsinə ucalır.

O, Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Milli Qəhrəmanımızın xatirəsini əbədiləşdirmək üçün Sadıllı qəsəbəsindəki küçələrdən birinə onun adı verilmişdir.

Bu gün tam əminliklə demək olar ki, bizim İqor kimi minlərlə igid, qəhrəman oğullarımız hələ də var və bu oğullar torpaqlarımızı düşmən tapdağından azad etməyə, düşməndən qisas almağa hər zaman hazırdırlar.

**gizir X.Tağıyeva**

## NÜMUNƏVİ XİDMƏT



***Əsgər İbadulla Kərimov 16076 saylı hərbi hissənin nizam-intizamlı və bacarıqlı hərbi qulluqçularındandır.***

***Vətənpərvərliyi ilə xüsusilə fərqlənən hərbi qulluqçu qısa müddətdə kollektivin hörmətini qazanıb.***

Hələ uşaq yaşlarından hərbçi olmaq istədiyini bildirən İbadulla Daxili Qoşunların tərkibində Vətənə, dövlətə xidmət etməyi özü üçün ən böyük fəxarət hesab edir. Çünki onun atası da vaxtilə Daxili Qoşunların hərbi qulluqçusu olub və onda vətənpərvər hisslərin formalaşmasında təbii ki, atası böyük rol oynayıb. İbadulla Vətəni daima müdafiə etmək, onun nüfuzunun və qüdrətinin möhkəmləndirilməsi üçün hər zaman səy göstərmək və bu yolda hətta canını belə qurban vermək ruhunda böyüyüb. Hərbi biliklərə xüsusilə maraq göstərib. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılıb.

1 ildən artıqdır ki, 16076 saylı hərbi hissədə xidmətini davam etdirən əsgər İ.Kərimov qısa müddət ərzində cəsarəti, məşğələlərdə, təlimlərdə fəallığı ilə həm komandir heyətinin, həm də əsgər yoldaşlarının etimadını qazanıb. O, daima öz üzərində çalışır, çünki yaxşı başa düşür ki, hərbçi yalnız bu zaman qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını, eləcə də qəflətən yarana biləcək çətinlikləri çevik sürətdə və yüksək dəqiqliklə aradan qaldıra bilər.

Bu zəhmətin və çevikliyin nəticəsidir ki, o, hərbi xidmətin bütün çətinliklərinin öhdəsindən lazımınca gəlir. Əsgər İ.Kərimov bundan sonra da ona olan etimadı daim doğrultmaq, Daxili Qoşunların sıralarında qalmaq və atasının yolunu davam etdirmək istədiyini bildirdi.

Xidmətə məsuliyyətlə yanaşan bu cür hərbi qulluqçular Daxili Qoşunların qüdrəti, cəmiyyət arasında nüfuzu gündən-günə artır, döyüş qabiliyyəti yüksəlir.

**gizir X.Tağıyeva**

## HƏRBİ QULLUQÇULARIMIZ MÜKAFATLANDIRILDI

Mayın 3-də DİN-in Təlim Mərkəzində ictimai qaydanın və ictimai təhlükəsizliyin təmini zamanı kütləvi iğtişaşların, cinayətlərin, eləcə də digər hüquqpozmaların qarşısının alınması və silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyatların təşkilinə dair taktiki təlim məşqi keçirilmişdir.

Daxili Qoşunların hərbi qulluqçuları ilə yanaşı, daxili işlər orqanlarının müvafiq qurumlarının təxminən iki min nəfərə yaxın əməkdaşının iştirak etdiyi təlimdə daxili işlər naziri, general-polkovnik Ramil Usubov iştirak etmişdir.

Tədbirin gedişini izləyən nazir təlimin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədi daşıdığını qeyd edərək, şəxsi heyətin bu sahədə hazırlığını yüksək qiymətləndirmiş və Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin etmişdir ki, daxili işlər orqanlarının əməkdaşları, digər hüquq-mühafizə orqanları ilə birlikdə, ölkəmizdə ictimai asayişin və təhlükəsizliyin davamlı təmini, vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində bundan sonra da əzmkarlıqla çalışacaqlar.

Qeyd edək ki, Daxili Qoşunların təlimdə iştirak edən hərbi qulluqçularından 90 nəfəri daxili işlər naziri, 28 nəfəri Daxili Qoşunların Komandanı, 70 nəfəri isə qoşunların hərbi hissə komandirləri tərəfindən mükafatlandırılmışdır.

## GƏNC ƏSGƏRLƏRİN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLMİŞDİR



Mayın 17-də Daxili Qoşunların sıralarına yeni daxil olan gənc əsgərlərin andiçmə mərasimi keçirilmişdir.

Mərasimdə Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisi general-mayor Şirin Xəlilov, DQBİ-də Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov, Daxili Qoşunların Veteranlar şurasının sədr müavini Telman Aslanov, döyüşçü-şair Elxan Xəzər, əsgər valideynləri və yaxın qohumları iştirak edirdilər.

Mərasim Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilməklə başladı. Sonra tədbirin rəsmi hissəsi açıq elan olundu.

Nümunəvi-Göstərici Hərbi Orkestrin ifası ilə Döyüş Bayrağı sıra meydanına gətirildi. Tədbir hərbi hissə komandiri polkovnik Salamat Cəfərovun çıxışı ilə davam etdi. Polkovnik S.Cəfərov Daxili Qoşunların yaranma tarixi, döyüş yolu, inkişaf və quruculuq dövrü barədə geniş məlumat verdi. O, gənc əsgərləri bu əziz gün münasibəti ilə təbrik edərək, Vətənə şərəflə xidmət etməyin vacibliyini vurğuladı.

Sonra gənc əsgərlər hərbi anda gətirildi. Onlar Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü qanını və canını əsirgəməyəcəklərinə söz verərək, Vətənə sədaqət andı içdilər.

General-mayor Ş.Xəlilov təntənəli gün münasibətilə gənc əsgərləri təbrik edərək onlara öz tövsiyələrini çatdırdı:

"Hərbi andın insanın daxilində, fikrində, düşüncəsində yaratdığı məsuliyyət heç nə ilə əvəz olunmur. Bu anddan irəli gələn tələblər siz əsgərlərin üzərində çox çətin və şərəfli bir vəzifə qoyur. Vətənin, millətin, torpağın taleyi məhz siz əsgərlərə etibar edilir. Unutmayın ki, hərbi andiçmə gənc əsgərlərin Azərbaycanın ləyaqətli vətəndaşı olmaq üçün atdığı ilk addımdır".

Sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının təbrikinin çatdırılması üçün söz polkovnik M.Qənbərova verildi. Təbrikdə hər bir əsgərin Vətənə şərəflə xidmət edəcəyinə, Azərbaycan Respublikasının qanunlarına və hərbi nizamnamələrin tələblərinə ciddi riayət edəcəyinə, eləcə də yüksək döyüş hazırlığına və möhkəm nizam-intizama malik olacaqlarına əminlik vurğulanırdı.

Həmişəki kimi, döyüşçü-şair Elxan Xəzər də gənc əsgərləri təbrik edərək, onlara öz vəzifələrinin icrasına məsuliyyətlə yanaşmalarının son dərəcə vacib olduğu bildirdi.

Mərasim şəxsi heyətin sıra meydanı önündən təntənəli keçidi ilə başa çatdı.

**baş leytenant T.Əlizadə**



## LİSEY ŞAGİRDLƏRİ HƏRBİ HİSSƏMİZDƏ OLMUŞLAR

***"Bu şəraiti görəndə nəinki gənc oğlanlar, hətta qızlar da orduda xidmət etməyə can atır..."***

Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan ordumuz bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir.

Müharibə şəraitində yaşayan ölkəmizdə ordumuzun gücünün artırılması, xüsusilə gənclərin vətənpərvər ruhda tərbiyə edilməsi əsas məsələlərdəndir.

Bu məqsədlə may ayının 17-də Bakı şəhəri 12 saylı peşə liseyinin şagirdlərinin qoşunların 67987 saylı hərbi hissəsinə gəzintisi təşkil olundu.

İlk olaraq qeyd edim ki, əsası 1922-ci ildə qoyulmuş liseydə mühasib, aşpaz, şirniyyatçı, turizm agenti, oymaçı, fərdi kompüter operatoru və başqa ixtisaslar üzrə savadlı kadrlar hazırlanır. Hələ sovet dövründə də təhsil ocağının yetişdirmələri ölkədən kənarda keçirilən bütün yarışlarda respublikamızın adını uca tutmuşlar.

Bu gün də liseyin şagirdləri öz qabiliyyətləri ilə yanaşı, həm də savadları ilə fərqlənir, idman yarışlarında uğurlar qazanırlar. Nizami müəllim peşə liseyində gənclərin hərbi biliklərinin artırılması üçün hər bir şəraitin yaradıldığını bildirdi: "Liseyin hərbi kabineti, atıcılıq tirləri var. Şagirdlər burada müharibə dövründə istifadə edilmiş silahlar, onların taktiki-texniki xüsusiyyətləri, eləcə də hərbi qulluqçuların geyimləri ilə tanış olur, yeni məlumatlar əldə edirlər".

Gənclərin hərbi biliklərinin daha təkmilləşdirilməsi, onların hərbiyə olan marağının artırılması üçün təşkil edilmiş bu görüşü yüksək qiymətləndirən qonaqlar hərbi hissə ilə tanışlığa Daxili Qoşunların muzeyi ilə başladılar. Baş leytenant Anar Əhmədov muzeyin Daxili Qoşunların Komandanının müvafiq əmri ilə 2008-ci ildə yaradılığını bildirdi. O, qoşunların erməni işğalçılarına qarşı döyüşə başladığı günün, yəni 12 mart 1992-ci il tarixinin Daxili Qoşunların yaranma günü kimi qeyd olunması barədə Ulu Öndər Heydər Əliyevin Fərmanı, qoşunların döyüş yolu, şəhidlərimiz barədə geniş məlumat verdi. Bildirdi ki, şəxsi heyət ilk dəfə Ağdam, Ağdərə, Cəbrayıl rayonları uğrunda aparılan hərbi əməliyyatlarda böyük cəsarət və mərdliklə erməni işğalçılarına qarşı vuruşublar. Hərbi qulluqçularımızdan 9 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Ümumilikdə isə 510 nəfər şəhid olub, 268 nəfər isə itkin düşüb. Bu məlumatlarla yanaşı, qəhrəmanlarımızın döyüş zamanı istifadə etdikləri silah-sursatlar, geyim formaları, döyüş yolunu əks etdirən fotolar, müxtəlif eksponatlar şagirdlərin xüsusi marağına səbəb oldu. Qoşunların sülh və müharibə dövründə yerinə yetirdiyi vəzifələr onların diqqətinə çatdırıldı. Kütləvi iğtişaşların qarşısının alınmasında, mühüm obyektlərin qorunmasında, silahlı cinayətkarlara qarşı mübarizədə, qəzalar, yanğınlar, bədbəxt hadisələr və digər fövqəladə hallar zamanı, dövlət əhəmiyyətli tədbirlərin keçirilməsində, eləcə də zərurət olduqda ölkəmizin ərazi bütövlüyünün qorunmasında qoşunların şəxsi heyətinin qüvvəsindən istifadə olunduğu bildirildi.

2-ci mərtəbədə yerləşən Heydər Əliyev muzeyində isə qonaqlar Ulu Öndərin həyat və fəaliyyəti haqqında kitablar, Ümummilli Lider Heydər Əliyevin, eləcə də ölkə başçısı cənab İlham Əliyevin Daxili Qoşunlar barədə söylədiyi dəyərli fikirlər, dövlətin qoşunlara diqqət və qayğısını əks etdirən fotolar, həmçinin qoşunların beynəlxalq əlaqələrini, idman nailiyyətlərini əks etdirən eksponatlarla tanış oldular.

Sonra şagirdlər hərbi hissənin avtomobil bölüyünün əsgərlərinin yataqxanasında və yeməkxanada oldular. Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Hüseyn Məmmədov şagirdləri hərbi qulluqçular üçün yaradılmış hərtərəfli şəraitlə tanış etdi.

Qeyd edim ki, hərbi hissənin ixtisaslı hərbi qulluqçuları da qonaqları müşayiət edir və onları maraqlandıran suallara cavab verirdilər. Sonda xidməti itlərin və atların yetişdirilmə məntəqəsini gəzən qonaqlar həqiqətən də Daxili Qoşunların hərbi hissələrindəki inkişafın, nizam-intizamın çox yüksək səviyyədə olduğunu etiraf etdilər.

Xoş təəssüratlarla hərbi hissədən ayrılan müəllim heyəti qoşunlar haqqında öz fikirlərini də bölüşməyi unutmadı. Güləhməd müəllim bildirdi ki, onların hərbi qulluqçularla ilk görüşüdür. Daxili Qoşunlar haqqında əvvəllər az məlumatları olduğunu deyən liseyin hərbi müəllimi bildirdi ki, qoşunlarda yaradılan hərtərəfli şərait bu gün respublikamızın ordu quruculuğu sahəsində böyük uğurlar əldə etdiyindən xəbər verir: "Mən 25 il SSRİ ordusunda xidmət etmişəm və tam əminliklə deyə bilərəm ki, buradakı səliqə-sahman, nizam-intizam, yaradılan şərait, komandirlərin əsgərlərə qayğısı o illərdəkindən qat-qat artıqdır".

Lisey təmsilçisi ölkəmizin müharibə şəraitində yaşadığı bir dövrdə xüsusilə gənc nəslin vətənpərvərlik hisslərinin artırılması üçün bu cür tədbirlərin böyük əhəmiyyət kəsb etdiyini dedi. Söylədi ki, bu şəraiti görəndə nəinki gənc oğlanlar, hətta qızlar da orduda xidmət etməyə can atırlar. Güləhməd müəllim bu cür ekskursiyaların bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu sözlərinə əlavə etdi.

**gizir X.Tağıyeva**

4_Layout 1 26.05.2014 8:51 Page 1



# BİZİM ŞÜAR:

## "MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!"

# UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə "yoldaş" Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

**1988-ci ildə** Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

**1988-1993-cü illərdə** aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

# MÜHƏNDİS SİLAHLANMA VASİTƏLƏRİNƏ İLLİK TEXNİKİ BAXIŞ KEÇİRİLMİŞDİR

**Artıq nəticələr məlumdur**



***Daxili Qoşunlarda daimi yüksək döyüş hazırlığını qoruyub saxlamaq, o cümlədən qarşıya çıxa biləcək qəfləti döyüş tapşırıqlarının keyfiyyətlə yerinə yetirilməsi məqsədilə hər il bir sıra mühüm sahələr üzrə texniki baxış keçirilir. Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən bu il də AHM-də və hərbi hissələrdə mühəndis silahlanma vasitələrinə illik texniki baxış keçirilmişdir.***

Texniki baxışın keçirilməsi zamanı mühəndis silahlanma vasitələrinin texniki vəziyyəti, istismar qaydaları, qorunub saxlanılması, xidmətin fəaliyyəti, xidmət üzrə vəzifəli şəxslərin vəzifə borclarının, yoxlama-nəzarət normalarının yerinə yetirilməsi yoxlanılmışdır. Artıq nəticələr məlumdur.

İllik texniki baxış zamanı mühəndis silahlanma vasitələrinin texniki vəziyyətinə, istismarında, qorunub saxlanılmasında müsbət göstəricilər əldə etdiyinə görə **99713 saylı hərbi hissə I yerə, 67987 saylı hərbi hissə II yerə, 17072 saylı hərbi hissə isə III yerə layiq görülmüşdür.**

Nəticələri qənaətbəxş olmayan **25032**, **16073** və **16076** saylı hərbi hissələr isə illik texniki baxışı sonuncu pillədə başa vurmuşlar.

**baş leytenant T.Əlizadə**

## HƏKİM MƏSLƏHƏTİ

# İSTİVURMA, GÜNVURMA ZAMANI İLK TİBBİ YARDIM VƏ PROFİLAKTİKASI

***Orqanizmdə temperaturu müvafiq tənzimedici mexanizm normal səviyyədə saxlayır. Bununla belə orqanizmin daxili enerji mübadiləsini azaltmaq imkanı müvafiq dərəcədə olmadığı üçün ətraf mühitdə temperatur yüksəldikdə bu mexanizm istiliyi kifayət qədər xaric edə bilmir. Nəticədə orqanizmdə toplanmış istilik ali sinir və hipofiz-böyrəküstü vəzi sisteminin fəaliyyətini pozur. Dəridə və daxili orqanlarda yerləşən reseptorlar qıcıqlanır. Bu vəziyyət orqanizmin yüksəlmiş temperatura qarşı fərdi həssaslığının və adaptasiya qabiliyyətinin tələb edilən dərəcədə olmaması ilə izah edilir. Eyni zamanda qanın qatılığının artması nəticəsində baş vermiş hemodinamik pozğunluqlar uzunsov beyində yerləşən mərkəzlərin iflicinə, böyrəküstü vəzin fəaliyyətinin kəskin pozğunluğuna və adaptasion sindromun zəifləməsinə səbəb olur ki, bu da ölüm təhlükəsi törədir.***

**Beləliklə, bədənin uzun müddət qızması və ya düz günəş şüalarının açıq başa təsiri istivurmaya, günvurmaya səbəb ola bilər. Bu zaman müşahidə edilən kliniki əlamətlərin iki forması ayırd edilir.**

Orqanizmin həddən artıq qızmasına qarşı ürək-damar sisteminin reaksiyası nəticəsində qəflətən baş vermiş qısamüddətli kollaps, adətən, istilik hissiyyatı, baş ağrısı, ürəkdöyünmə, ürəkbulanma, ümumi əzginlik və zəiflik əlamətlərindən sonra dərinin solğun və nəm olması, taxikardiya və hipotoniya əlamətləri ilə aşkar olunur.

Bu zaman həmin şəxsi isti sahədən nisbətən sərin yerə aparır, əynindəki dar paltarı çıxardıqdan sonra ona soyuq su içizdirir, başına soyuq suda isladılmış dəsmal qoyurlar.

Eyni şəraitdə baş vermiş hipertermiya, tər ifrazının kəskin pozğunluğuna, başağrısına, başgicəllənməyə, bəzən psixi pozğunluğa, təngnəfəsliyə, ürəkbulanmaya, ümumi zəifliyə və əzginlik hissiyyatına, nəhayət, huşun itməsinə səbəb ola bilər. Bundan sonra temperatur 40-42 dərəcə $C^0$-dək yüksəlir, dəri quru və isti olub, taxikardiya və səthi tənəffüs fonunda müvafiq qanunauyğunluqla koma inkişaf edir. Bu komanı digər xəstəliklər zamanı inkişaf edən komatoz vəziyyətlərdən ayırmaq lazımdır. **İstivurma (günvurma) zamanı inkişaf edən komanın səciyyəvi kliniki əlamətləri bunlardır:**

- psixomotor oyanmadan sonra huşun itməsi, qıcolma, bəzən isə meningial əlamətlər, dəridə hiperemiya, sianoz, yapışqan tər, ağır vəziyyətdə isə dəri quru və isti olur, taxikardiya, zəif nəbz vurğuları müəyyən edilir, Çeyn-Stoks tipli tənəffüs, bəzən ağciyərlərin odemi əlamətləri, qeyri-iradi sidik ifrazı və defekasiya aktı müşahidə olunur.

**Əlavə kliniki əlamətlər:** səciyyəvi anamnez, hipertermiya (40-41 $C^0$), gözdibi damarları genişlənir, görmə siniri məməciyinin sərhəddi silinir, qanda eritrositoza meyillik, leykositoz və ya leykopeniya.

Bu zaman təcili tibbi yardım göstərmək məqsədi ilə xəstəni nisbətən sərin yerə gətirib, onu sıxan dar paltarını çıxarıb, bədəninə soyuq su çəkdikdən sonra başına və qasıq nahiyyəsinə buzla doldurulmuş isitqac qoyurlar. Dərhal venaya 500 ml natrium-xloridin izotonik məhlulu (fizioloji məhlul), 4-6 ml 50 faizli analgin və 6-8 ml 1 faizli laziks məhlulu qarışığı, əzələyə ayrı-ayrılıqda 5 ml 5 faizli askorbin turşusu, 2 ml 5 faizli B6 və 2 ml 5 faizli B1 vitamin məhlulu yeridilir və ehtiyac olsa simptomatik dərman preparatı yeridilir. Zərərçəkənə ilk tibbi yardım göstərdikdən sonra təcili sürətdə hospitala və ya yerli xəstəxanalara çatdırmaq lazımdır.

**Hərbi qulluqçular arasında istivurmanın (günvurmanın) qarşısını almaq üçün bir sıra profilaktik tədbirlər həyata keçirilməlidir:**

*- havanın temperaturu və rütubətliliyi yüksək olduqda fiziki iş zamanı orqanizmin həddindən çox qızmasına yol verməmək;*

*- günəş şüalarının koredici təsiri, üz dərisi və dodaqların günəş yanıqlarından və küləkdən codlaşması, tənəffüs üzvlərinə tozun daxil olmasının qarşısını almaq;*

*- tərləmədən və istilik stresindən orqanizmin su itirməsi nəticəsində baş verən su-duz balansının pozulmasının qarşısını almaq.*

**Hərbi qulluqçuların orqanizminin qızması və dehidratasiyasının (susuzlamasının) profilaktikasına aşağıdakılar aiddir:**

*- istiliyin təsirinə qarşı tədbirlərin aparılması (xidmətin rasional təşkil olunması, fiziki gərginliyinin azaldılması);*

*- istilikverməni intensivləşdirən şəraitin təmin olunması (yaxalığın açılması, geyimin isladılması, duş qəbulu, içməli su ilə lazımi səviyyədə təminat);*

*- xarici mühitdən istiliyin daxil olmasını zəiflədən tədbirlərin aparılması günün ən isti vaxtında tədbirlərin dayandırılması, günəş şüalarının təsirindən mühafizə və hava mübadiləsinin artırılması, temperatur 37 $C^0$-dən çox olduqda geyimlərin çıxarılmasının qadağan edilməsi və s;*

*- qida qəbulunun çox isti olmayan vaxta keçirilməsi, məsələn, səhər 05:30-06:00-dək, nahar 11:00-13:30-dək, axşam 18:30-19:00-dək olması;*

*- seçmə üsulu ilə hərbi qulluqçularda termometriya keçirilməsi və nəbzin ölçülməsi (bədən hərarətinin 38 $C^0$-dən yuxarı qalxması, nəbzin isə 140-dan artıq olması istivurma əlamətidir).*

**Orqanizmin su ilə optimal təminatının təşkili fizioloji-gigiyenik tələblər əsasında dehidratasiyanın (susuzlaşmanın) profilaktikasına yönəldilməlidir:**

*- hərbi qulluqçuların keyfiyyətli su ilə müəyyən olunmuş normaya müvafiq təminatı;*

*- hər 30-60 dəqiqədən bir 200-300 ml miqdarında müntəzəm qaydada içməli ılıq suyun qəbulu;*

*- susuzluğun səngiməsi üçün 300-400 ml suyun qurtumlarla ağız boşluğunda, bir müddət saxlanılaraq içilməsi, susuzluq hissiyatı azalmadıqda 20-30 dəqiqə sonra göstərilən həcmdə suyun təkrar içilməsi;*

*- çayın və suyun soyudulmuş halda (18-20 $C^0$) içilməsi, o cümlədən suya, yaxud çaya meyvə-giləmeyvə ekstraktlarının əlavəsi;*

*- yoxlanılmamış mənbələrdən suyun həddindən çox və qaydasız qəbulunun qadağan edilməsi.*

**DQBİ-də Tibb Xidməti**

# SÜRÜNƏNLƏR VƏ HƏŞƏRATLAR DİŞLƏYƏN ZAMAN İLK TİBBİ YARDIM

**İlan dişləməsi**

İlan sancan nahiyədə kiçik yara əmələ gəlməklə orada ağrı, şişkinlik, qızartı, suluqlar yaranır. Xəsarət alanda narahatlıq, həm də üşütmə baş verir, bəzən bayılma da olur, ayıldıqdan sonra isə baş ağrısı, başgicəllənmə hiss olunmaqla mədə bulanması, qusma, susuzluq, udmanın pozulması, ishal, təngnəfəslik və başqa hallar da ola bilər.

Əgər kimisə ilan dişləyibsə, ilk əvvəl ilanın zəhərli və ya zəhərsiz olmasını müəyyənləşdirin.

**Zəhərsiz ilan**

Zəhərsiz ilanın iki sıra şəklində nöqtəvari diş izləri qalır. Köpək dişinin izi olmur.

**Zəhərli ilan**

Ən zəhərli ilanın dişləməsi nəticəsində köpək dişinin və digər dişlərin kiçik nöqtə şəklində izləri qalır.

**Zəhərli ilan dişləyən zaman görülən tədbirlər:**

**1)** Sakit durun. Dişlənmiş hissəni tərpətməyin. Tərpətdikcə zəhər çox sürətlə bədənə yayılacaq. Əgər dişlənilən yer ayaqdadırsa, yerimək olmaz. Tibbi yardım çağırın.

**2)** Zəhərin yayılmasının qarşısını almaq üçün dişlənmiş hissəni enli elastik bint, yaxud təmiz parça ilə sarıyın. Nəzarət edin ki, sarğıdan sonra ətrafda nəbz itməsin.

**3)** Ayaq və ya əldən başlayıb yuxarıyadək bütün ətrafı sarıyın. Nəbzin olmasına əmin olun.

**4)** Sonra ətrafı tam hərəkətsizləşdirmək üçün şina qoyun.

**5)** Şəxsi xərəkdə ən yaxın xəstəxanaya aparın. Mümkünsə, ilanı da aparın (Əgər öldürülübsə). Çünki müxtəlif növ ilan zəhərlərinə qarşı müxtəlif antitoksinlər tətbiq olunur. Əgər antitoksini inyeksiya etmək lazım gələrsə, o hazır olanadək sarğını açmayın və bu zaman allergik şok əleyhinə bütün tədbirləri görün. Antitoksin yoxdursa, sarğını açın.

**6)** Ağrıya qarşı aspirin yox, parasetamol (asetaminfen) verin. Tetanus əleyhinə zərdab vurdurun. Dişlək yeri yoluxubsa, çirklənibsə, antibiotik, ən yaxşı penisillin vurdurun.

**7)** Ağrını azaltmaq, həmçinin zəhərlənməni zəiflətmək üçün buz kömək edir. Ayağı, yaxud qolu plastik örtük və qalın parça ilə sarıyın və ətrafına əzilmiş buz parçaları düzün.

**Xəbərdarlıq:** Çox soyuq dəri və əzələni zədələyir, ətraf ağrımağa başlayır. Beləliklə, siz şəxsdən soruşmaqla buzu bir neçə dəqiqəliyə götürə bilərsiniz.

Yara yerindən zəhəri çıxarmaq məqsədi ilə yardım edən şəxsin yaranı ağzı ilə sorması qəti olmaz, çünki zəhər yardım edənin qanına sovrularaq onu zəhərləyə bilər.

**Kərtənkələ dişləməsi**

Kərtənkələ dişləməsi ilan dişləməsi kimi müalicə olunur, lakin ona qarşı uyğun antitoksin yoxdur. Bəzən xəstənin vəziyyəti çox təhlükəli ola bilər. Bunun üçün dişlənən yeri yaxşı yuyun. Hərəkət etməyin və dişlənən yeri ürək səviyyəsindən aşağıda saxlayın və ilan dişləməsindəki tibbi yardımı tətbiq edin.

**Əqrəb dişləməsi**

Bəzi əqrəblər digərlərinə nisbətən daha çox zəhərli olur. Yaşlılar üçün əqrəblər çox təhlükəli deyil. Bu zaman aspirin qəbul edin və ağrını azaltmaq üçün dişlənən nahiyəyə buz qoyun. Bəzən həftələr və aylarla davam edən keyiməni və ağrını götürmək üçün sonradan isidici kompreslərdən istifadə etmək olar.

5 yaşından kiçik olan uşaqlar üçün əqrəb dişləməsi, xüsusən dişlənən yer başda və ya bədəndə olduqda çox təhlükəlidir.

Bəzi ölkələrdə əqrəb zəhərinə qarşı antitoksin var.

Yaxşı təsir üçün uşağa əqrəb dişlədikdən sonrakı iki saat ərzində inyeksiya edilməlidir. Ağrıya qarşı parasetamol və ya aspirin verin. Uşağın nəfəsi daralırsa, ona ağızdan-ağıza tənəffüs verin. Əgər uşaq çox kiçikdirsə və ya əqrəb onun bədənin əsas hissəsini dişləyibsə, yaxud əqrəb öldürücü növdəndirsə, təcili olaraq tibbi yardım çağırın.

**"Qaraböcək" və başqa hörümçəklərin dişləməsi**

Tarantul da daxil olmaqla, əksər böcəklərin dişləməsi ağrılı da olsa, təhlükəli deyil. Bəzi növ hörümçəklər, məsələn, "qaraböcək" böyük adamı dişlədikdə, bu ona çox pis təsir edə bilər. Bu hörümçək kiçik uşaqlar üçün təhlükəlidir. "Qaraböcək" dişləməsi nəticəsində bütün bədəndə ağrılı əzələ qıcolması və mədə əzələsində son dərəcə möhkəm ağrılar olur. (Bəzən bunu appendisitlə qarışıq salırlar).

Parasetamol və ya aspirin verin və tibbi yardım çağırın. 10 faizli kalsium-qlükonat inyeksiyası əzələ qıcolmasını azaldır. Diazepam da kömək edər. Əgər şok varsa, ona qarşı müalicə aparın. Uşaqlara prednizalon inyeksiyası lazım ola bilər.

**Yoluxmuş təhlükəli yaralar**

İt dişləməsi, pişik və ya başqa yırtıcı heyvanın cırmaqlaması nəticəsində baş vermiş yoluxmalar təhlükəlidir. Aşağıda göstərilən yaralar daha çox təhlükəlidir.

**1)** Çirkli yaralar və ya çirkli əşya ilə törədilmiş yaralar;

**2)** Deşilmiş və az qan xaric edən dərin yaralar;

**3)** Heyvanlar saxlanılan yerdə baş vermiş yaralar;

**4)** Əzilmiş və qançırlı yaralar;

**5)** İt və digər yırtıcıların dişləməsi nəticəsində əmələ gələn yaralar;

**6)** Güllə yarası.

**İlk tibbi yardım:** yaranı sabun və qaynanmış su ilə yuyun. Çirkli, örtmüş qan laxtasını və zədələnmiş toxumaları xaric edin. Bu zaman şprisdən və ya sorucu balondan istifadə edin.

Əgər yara dərindirsə və yaxud orada çirk olma ehtimalı vardırsa, antibiotikdən istifadə edin. Penisillin daha münasibdir, əgər penisillin yoxsa ampisillin, eritromsin, tetrasiklin, kotrimaksozol və sairədən istifadə edin.

Belə yaralarda heç vaxt tikişdən və leykoplastrdan istifadə etməyin. Yaranı açıq saxlayın. Əgər o çox böyükdürsə, təcrübəli tibb işçisi və yaxud həkim onu sonra bağlaya bilər.

**Arı sancması**

Arı sancan yerdə kiçik yara əmələ gəlməklə, ona arının zəhəri keçdiyindən, qısa müddətdə həmin nahiyədə ağrı, hərarət, qızartı, şişkinlik və başqa ümumi narahatlıq halları yaranır.

**İlk yardım:** Yaradan arı neştəri ehtiyatla çıxarılır ki, ora onun neştərinin ucundakı zəhərli hissə partlayıb, zəhər yaraya tökülməsin. Sonra həmin yer (yara) naşatır spirtinin sulu məhlulunda (2/5 nisbətində) isladılmış parça qoymaqla sarınır, onun da üstündən buz qoyulur. Həmin nahiyə mümkün qədər yuxarı qaldırılır. Lazım olarsa, başqa köməklər də göstərilməlidir.

**DQBİ-də Tibb Xidməti**

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Rəşad Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000